Uğur strategiyasının müəllifi

Müstəqil Azərbaycan yeni minilliyin başlanğıcında ulu öndər, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının ən layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu gələcəyinə doğru inamla irəliləyir, bu yolda qarşılaşdığı müxtəlif maneələrə, çətinliklərə sinə gərir, möhtəşəm nailiyyətlərə imza ataraq dünya dövlətləri arasında layiqli yer tutmaqda davam edir.

2003-cü ilin 15 oktyabrından ölkəyə inamla rəhbərlik edən cənab İlham Əliyev ötən müddətdə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu çoxşaxəli islahatları daha da genişləndirərək ölkənin iqtisadi sahədə keçid dövrünü başa vuraraq modernləşmə mərhələsinə qədəm qoymasına nail olmuşdur. Dövlət başçısı ötən dövr ərzində fəaliyyəti ilə xalqın seçimini doğrultmağa qadir qətiyyətli, peşəkar və milli maraqlara bağlı rəhbər olduğunu nümayiş etdirmişdir. Yüksək siyasi iradəsi, məqsədə doğru inamla irəliləməsi, milli maraqlara sadiqliyi, praqmatizmi, təvazökarlığı və sadəliyi, ən əsası, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olması ölkə rəhbərinin xalqdan davamlı dəstək almasını təmin etmişdir.

Ötən illərdə bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini sürətlə adlayan Azərbaycan azad və mütərəqqi düşüncə tərzinin diktə etdiyi bazar iqtisadiyyatı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna, Avratlantik məkana inteqrasiya kursuna, sivil Qərb dəyərlərinə sadiqliyini sübuta yetirmişdir. Cənab İlham Əliyevin ulu öndərin mükəmməl siyasət məktəbində yetişmiş peşəkar diplomat kimi təmiz keçmişə, eləcə də praqmatik, müasir lider imicinə malik olması, müasir dünya reallıqlarını düzgün qiymətləndirməsi, qlobal proseslərə xalqın mənafeyinə uyğun nüfuz etmək bacarığı, respublikanı qısa zamanda bölgədə və bütövlükdə Avropa məkanında nüfuzlu dövlətə çevirməsi onun həm daxildə, həm də ölkə hüdudlarından kənarda ciddi siyasi dəstək almasına zəmin yaratmışdır.

Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya yeni əsrdə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirmişdir. Dövlət başçısı cənab İlham Əliyevin diplomatik səyləri nəticəsində bir sıra Qərb dövlətlərinin həyata keçməsinə şübhə ilə yanaşdıqları Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də uğurla gerçəkləşmişdir.

Hazırda Azərbaycanın iştirakı olmadan regionda hər hansı transmilli layihənin reallaşması mümkün deyildir. Eyni zamanda, təcavüzkar Ermənistanı bu qlobal layihələrdən kənarda qoymaqla zəiflətməsinə, nüfuzdan düşməsinə səbəb olmuşdur. Dövlət başçısı dəfələrlə bəyan etmişdir ki, Azərbaycanın işğal altında olan torpaqları azad edilməyənədək təcavüzkar ölkə ilə hər hansı müştərək layihənin reallaşdırılmasından söhbət gedə bilməz.

Azərbaycanın uğurlu neft diplomatiyası və xarici siyasəti mənafelərimizə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə əlaqələrin genişləndirilməsi müstəvisi üzərində qurulmuşdur. Avropa ailəsinə inteqrasiya edən respublikamızda cəmiyyət bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqları başda olmaqla, demokratik dəyərlər bərqərar edilmişdir. Bütün bunlar dünya ictimaiyyətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətinə də müsbət mənada dəyişikliklər etmiş, respublikamızın problemlərinə daha ədalətlə yanaşmağa başlamışlar. Xüsusən də bu ilin aprelində Azərbaycanın təcavüzkar dövlət üzərində qazandığı zəfərdən sonra aparıcı dövlətlər münaqişənin sərhədlərin toxunulmazlığı və ölkənin ərazi bütövlüyü çərçivəsində həlli vacibliyini daha aydın dərk edirlər. Ümumilikdə, proseslərin gedişi Azərbaycana artıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllini hər an gündəmə gətirməyə imkan yaradır. Son illər ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Ümumiləşdirilmiş tərzdə ifadə etsək, qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artırılması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, eyni zamanda, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin yüksəldilməsi, regionların tarazlı və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, işsizlik, yoxsulluq problemlərinin tədricən aradan qaldırılması, əhalinin sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi, infrastrukturun bütün sferalarda yeniləşdirilməsi məsələləri ötən müddətdə cənab İlham Əliyevin iqtisadi siyasətinin əsas qayəsini təşkil etmişdir.

Bu nöqteyi-nəzərdən regional inkişaf və qeyri-neft sektorunun inkişafı naminə həyata keçirilmiş tədbirləri xüsusi vurğulamaq olar. Respublikanın bölgələrinin tarazlı və davamlı inkişafının təmin olunması, yeni iş yerlərinin açılması, infrastrukturun yeniləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması məqsədilə imzaladığı Dövlət proqramlarının, fərman və sərəncamların icrası vəziyyəti ilə yerindəcə tanış olmaq, sıravi vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilkin mənbədən almaq üçün vaxtaşırı Azərbaycanın müxtəlif rayonlarına təşkil edilən səfərlər də cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin üstün istiqamətlərindən biri kimi diqqəti çəkir.

Ötən dövrün rəsmi statistik rəqəmləri göstərir ki, 2004-2015-ci illər ərzində real olaraq orta hesabla 10,6 faiz iqtisadi artım müşahidə edilmiş, ÜDM-in nominal həcmi isə 7,6 dəfə artmışdır. Dövr ərzində adambaşına ÜDM-in həcmində 6,5 dəfə artım olmuş, Azərbaycan dünya ölkələri arasında 134-cü yerdən 79-cu yerə yüksəlmiş, əhalinin sosial rifahı əhəmiyyətli səviyyədə yaxşılaşmışdır. Yoxsulluq səviyyəsi 2004-cü ildəki 40,2 faizdən 4,9 faizə enmişdir.

Ümumilikdə, 2003-2016-cı illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, reallığa adekvat olduğunu deməyə ciddi əsaslar verir. Bu mərhələnin statistikası keçilən yolun möhtəşəmliyini, Azərbaycanın müasir dövlətə çevrilməsinə xidmət edən siyasətin səmərəliliyini bir daha təsdiqləyir.

Respublikamızda son illərdə həyata keçirilən iqtisadi siyasətin əsasən sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənmiş, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması, bir sözlə, sosial-liberalizm xətti cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir. Azərbaycanda yeni mülkiyyət formalarının yaranması, sahibkarlığın sürətli inkişafı, bazar münasibətləri şəraitində qiymətlərin optimallaşdırılması əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Hər bir islahatın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə, təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir.

Prezident cənab İlham Əliyevin iqtisadi siyasətində insan amili mühüm yer tutur. Təsadüfi deyildir ki, hökumətin həyata keçirdiyi bir çox infrastruktur layihələri məhz sosial mahiyyət kəsb etmişdir. Dəniz səviyyəsindən 3000 metrədək hündürlükdə yerləşən Qubanın Xınalıq kəndinə yolun, sovetlər dövründən mavi yanacaq üzü görməyən Lerik və Yardımlıya qaz kəmərlərinin çəkilməsi, eləcə də Naxçıvanın davamlı olaraq elektrik enerjisi və qazla təmin olunması, Bakıya Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilməsi, rayonlarda yeni təhsil, səhiyyə, mədəniyyət, olimpiya-idman komplekslərinin tikintisi, qaçqın düşərgələrinin ləğvi - bütün bunlar Azərbaycan vətəndaşlarının firavan, rahat yaşamasına xidmət edən qlobal investisiya layihələrinin çox cüzi qismidir. Təsadüfi deyildir ki, Dünya İqtisadi Forumunun 2015-ci il üçün açıqladığı "İnsan kapitalı indeksi" hesabatında Azərbaycan 124 ölkə arasında 63-cü yeri tutmaqla Türkiyə, Çin, İndoneziya və Küveyt kimi ölkələri qabaqlamışdır.

Faktiki olaraq, Azərbaycanda vətəndaşların həyat səviyyəsinin yüksəldiyini bir neçə mühüm göstərici əyani surətdə əks etdirir. Yoxsulluq səviyyəsində yaşayan əhalinin xüsusi çəkisi on il ərzində altı dəfə azalaraq, 2005-ci ildəki 29,3 faizdən 2014-cü ildə 5 faizə qədər düşmüşdür. Digər sosial göstərici olan minimum əməkhaqqı 3 dəfədən çox artmışdır.

"Siyasətimizin əsasında Azərbaycan vətəndaşı dayanır" - deyən Azərbaycan Prezidenti cənab İlham Əliyev keyfiyyətcə yeni mərhələdə insan və vətəndaş mənafeyinə xidmət edən islahatların dərinləşdirilməsini də vacib sayır. Bu yanaşma respublikamızın qısa müddətdə həm də elektron xidmətlər sahəsində əldə etdiyi böyük uğurlara əsaslanır. Son illər korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaradılmış "ASAN xidmət" mərkəzləri qısa müddətdə ictimaiyyətin böyük inam və etimadını qazanaraq Azərbaycanın milli brendinə çevrilmişdir. Bu, dövlət idarəçiliyinə özəl sektorda geniş yayılmış "müştəri məmnunluğu" ideyasının geniş tətbiqinə, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan vermişdir. Yeni, müasir, şəffaf və çevik xidmət növü vətəndaşların dövlətə olan inam və etimadını, güvənini daha da artırmaqla yanaşı, ölkə başçısının neqativ hallara qarşı mübarizədə prinsipial siyasi iradə nümayişinin bariz təcəssümü olmuş, respublikamızın beynəlxalq arenada nüfuzu daha da yüksəlmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, yekunlaşmaqda olan 2017-ci il də müstəqil Azərbaycan üçün bir sıra əlamətdar hadisələrlə zəngin olmuşdur. Dünya maliyyə-iqtisadi böhranının dərinləşdiyi bir şəraitdə inkişaf tempini qoruyub saxlayan, qlobal enerji-kommunikasiya layihələrinin icrasını inamla davam etdirən respublikamız qarşıya qoyduğu hədəflərin böyük qismini praktik şəkildə gerçəkləşdirmişdir. Sistemli, məqsədyönlü və uzaq perspektivlərə hesablanmış strategiya iqtisadi sahədə qazanılan uğurların ardıcıllığını təmin edərək ölkə əhəmiyyətli qlobal layihələrin reallaşdırılmasına imkan vermişdir. 2017-ci ilin müvafiq dövründə ictimai həyatın bütün sahələri üzrə əldə olunmuş pozitiv nəticələr məhz konkret məqsədlərə yönəlmiş praqmatik iqtisadi siyasətin nəticəsidir.

Neftin qiymətinin kəskin azalması və ticarət tərəfdaşı ölkələrində böhran nəticəsində iqtisadi artım sürətinin yavaşması, institusional və struktur çağırışlar, maliyyə-bank sektorunda baş verən proseslər fonunda Azərbaycanda yeni iqtisadi inkişafa keçidə zərurət yaratmışlar. Qlobal səviyyədə cərəyan edən mürəkkəb siyasi, iqtisadi proseslərin mənfi təsirlərinə, bir çox ölkələrin ciddi iqtisadi, maliyyə və sosial problemlərlə üzləşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı bu il böhrandan maksimum dərəcədə qorunmağa nail olmuşdur. Əlbəttə, böhranın ölkəmizə müəyyən təsirləri var və hökumət hazırda bütün səylərini həmin təsirləri zərərsizləşdirmək istiqamətində səfərbər etmişdir. 2017-ci ildən bu istiqamətdə həyata keçirilən tədbirlər həm qanunvericiliyin təkmilləşdirilməsi, həm də təşkilati-struktur islahatlarının aparılması zəminində özünü göstərir. Real olaraq bütün səylər neft gəlirlərindən asılılığın azaldılmasına, idxalla ixrac arasında mütənasibliyin təmin edilməsinə, tədiyə balansındakı kəsirin aradan qaldırılmasına, sosial proqramların əhatə dairəsinin genişləndirilməsinə yönəlmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclasında, eləcə də yanvarın 18-də iqtisadi və sosial məsələlərin həlli ilə bağlı keçirdiyi müşavirədə bildirmişdir ki, Azərbaycan mənfi təsirlərdən qorunmaq üçün fəal antiböhran tədbirləri həyata keçirməli, maliyyə intizamı gücləndirilməli, lüzumsuz xərclərə yol verilməməli, bazarın sabitləşməsi üçün bir sıra səmərəli tədbirlər həyata keçirilməli, habelə sahibkarlığın inkişafına diqqət yüksəldilməlidir.

Dövlət başçısı cənab İlham Əliyevin açıqladığı antiböhran paketi Azərbaycanın yaranmış yeni iqtisadi və siyasi şəraitə uyğun neftdən asılı olmayan, ixracyönümlü, dayanıqlı inkişaf strategiyası seçdiyini göstərir. Bu mərhələdə ölkə başçısının müəyyənləşdirdiyi başlıca hədəflərdən biri də məhz ölkədə çevik və qlobal böhran dövrünün çağırışlarına adekvat cavab verə biləcək hökumət idarəetmə modelinin formalaşdırılması, şəffaflığın və hesabatlılığın artırılması, büdcə vəsaitlərindən qənaətlə istifadə olunmasıdır.

2016-2017-ci illərdə maliyyə-bank sektorunun dəstəklənməsi də daxil olmaqla, ciddi maliyyə monitorinqinin həyata keçirilməsi, kreditlərə və faiz dərəcələrinə, habelə inflyasiyaya nəzarətin gücləndirilməsi, real iqtisadiyyata daimi sərmayə yatırımlarının təmin edilməsi, sosial öhdəliklərin vaxtlı-vaxtında yerinə yetirilməsi, sənaye müəssisələrinin fəaliyyət istiqamətinin daxili bazara yönəldilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi qlobal böhrana qarşı səmərəli tədbirlər sisteminin yalnız müəyyən qismidir. Bu müddətdə, həmçinin fiksal və monetar siyasətin səmərəliliyi hökumət qarşısında duran vəzifələri həyata keçirməyə, iqtisadiyyatın inkişafı üçün zəruri maliyyə əsaslarının formalaşdırılmasına əlverişli imkanlar yaratmışdır. Bu mərhələnin antiböhran paketinə potensial gəlirlərin vergiyə cəlb olunması, xərclərin daha şəffaf idarəsi, büdcədən maliyyələşən müəssisə və təşkilatlar üzrə maliyyə əməliyyatlarının beynəlxalq standartlara cavab verən mühasibat uçotu qaydalarına uyğunlaşdırılması kimi vacib məsələlər da xüsusi qeyd olunmalıdır.

Ümumiyyətlə, qlobal böhran dövründə hökumətin əsas məqsədi mənfi xarici təsirlərin neytrallaşdırılması yolu ilə mövcud inkişaf xəttinin davam etdirilməsi əsasında böhrana girməmək olmuşdur. Bir tərəfdən uğurla gerçəkləşdirilən antiböhran tədbirləri, digər tərəfdənsə əvvəlki illərdən yaradılmış möhkəm maliyyə-iqtisadi potensial hesabına ölkə iqtisadiyyatının dayanıqlığı qorunub saxlanılmış, onun mənfi xarici təsirlərə müqavimət qabiliyyəti sınaqdan uğurla çıxmışdır.

Respublikamızda iqtisadi inkişaf, biznes mühitinin liberallaşdırılması və əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər müxtəlif beynəlxalq təşkilatlar və biznes qurumları tərəfindən müsbət dəyərləndirilir. Belə hesabatlardan biri də Dünya İqtisadi Forumunun "2016-2017-ci illər üzrə Qlobal Rəqabətlilik" hesabatıdır. Həmin hesabata görə Azərbaycan 2006-cı illə müqayisədə 27 pillə irəliləyərək 138 ölkə arasında 37-ci mövqedə qərarlaşmışdır. Respublikamız makroiqtisadi mühitin keyfiyyət göstəricisinə görə dünyada 39-cu, əmək bazarının səmərəliliyi üzrə 26-cı, milli gəlirin ÜDM-ə nisbəti üzrə 37-ci, infrastrukturun keyfiyyətinə görə isə 55-ci yerdədir.

Azərbaycanın böhrana qarşı səmərəli müqavimət göstərməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları da müstəsna əhəmiyyətə malikdir. 2004-2008-ci, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən regional inkişaf proqramlarının uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır. Ümumilikdə, proqramların icrasına bütün mənbələr hesabına 50 milyard manatdan çox vəsait yönəldilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamı, habelə həmin sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə ölkə başçısının 2016-cı il 6 dekabr tarixdə imzaladığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərman milli iqtisadiyyatın böhrandan çıxarılması və enerji resurslarından asılı olmayan dayanıqlı inkişaf modelinin formalaşdırılması baxımından vacib əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilə qədərki dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir.

2020-ci ilədək nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsi üçün iqtisadiyyata təxminən 27 milyard manat investisiyanın yatırılması proqnozlaşdırılır. Nəzərdə tutulan vəsait bütün növ dövlət və özəl (yerli və xarici) mənbələr hesabına təmin ediləcəkdir. Bu investisiyalar Azərbaycan iqtisadiyyatı üçün 2020-ci ilədək müəyyən edilmiş hədəflərdən əlavə, gələcək üçün nəzərdə tutulmuş planlara təsir baxımından da bünövrə rolunu oynayacaqdır.

Sənədə əsasən, milli iqtisadiyyat perspektivi çərçivəsində dörd strateji hədəf seçilmişdir. Bu hədəflərin və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real və maliyyə sektorları arasında tarazlığın təmin edilməsi yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi əsas məqsədlərdən biridir. Sənədlə qarşıya qoyulmuş əsas hədəflərdən biri olan nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirmənin həyata keçirilməsi yolu ilə iqtisadi dinamikliyin təmin edilməsindən ibarətdir.

Digər əsas strateji hədəflərdən biri biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsidir. Sənədin preambula hissəsində qeyd olunduğu kimi: "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin və sosial rifahın artırılmasına xidmət edir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycan dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır".

Sənəd təkcə inkişaf məqsədlərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, görüləcək tədbirləri, tələb olunan investisiya və gözlənilən nəticələri əhatə edir. Biznes mühitinin yaxşılaşdırılması tədbirləri çərçivəsində biznesin dövlət tənzimləmə mexanizmlərinin effektivliyinin artırılması, vergi-gömrük idarəetməsinin keyfiyyətinin yüksəldilməsi, bazara daxilolma məhdudiyyətlərinin minimuma endirilməsi, eyni zamanda, azad rəqabət mühitinin təmin edilməsi prioritet istiqamətlər kimi nəzərdən keçirilir. Bununla yanaşı, dövlət sektorunun kommersiya fəaliyyətinin (sənaye, nəqliyyat, rabitə, maliyyə xidmətləri və s.) məhdudlaşdırılması yolu ilə özəl təşəbbüskarlıq üçün imkanların genişləndirilməsi sənəddə əsas hədəflərdən biri kimi müəyyənləşdirilmişdir.

Ümumilikdə, bu məqsədlərin həyata keçirilməsi nəticəsində qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması əsas hədəflərdən biridir. Hazırda Azərbaycan iqtisadiyyatının idxal tələbi adambaşına 1000 ABŞ dollarına bərabərdir. Lakin idxalı tarazlaşdırmaq üçün ölkədən adambaşına 1500 ABŞ dolları həcmində ixrac məhsulunun çıxarılması vacibdir. Bu, manatın sabitliyinin təmin edilməsi, tədiyə balansının qorunması baxımından da vacib məqsəddir. Strateji Yol Xəritəsinə əsasən, hökumət ixracı məhz qeyri-neft sektoru məhsulları hesabına genişləndirməyi qarşıya hədəf qoymuşdur. Sənəddə bu məqsədlə sənayenin bir sıra mühüm sahələrinin müəyyənləşdirilməsi və həmin sahələrə investisiyaların cəlb edilməsi vacibliyi önə çəkilir. Qeyd olunur ki, bu sahələrə investisiya qoyuluşlarının artırılması, texnoloji avadanlıq və istehsal proseslərinin yenilənməsi, əmək məhsuldarlığının yüksəldilməsi, həmçinin ümumi satışda innovativ məhsulların payının beynəlxalq göstəricilər səviyyəsinə qaldırılması aktualdır. Daxili imkanların və regional bazarın təhlili nəticəsində ölkədə istehsal edilə bilən, əlavə dəyər zəncirində yüksək yer tutan və regional rəqabət qabiliyyətinə malik malların ümumi siyahısı hazırlanacaqdır.

Strateji Yol Xəritəsi 2025-ci ilədək ticari mal və xidmətlər sektorunda 150 min əlavə iş yerinin açılmasını da hədəfləyir. İxracın şaxələndirilməsi üçün ticari mal və xidmətlər sektorunda, yəni, beynəlxalq səviyyədə satıla bilən məhsulların (məsələn, sənaye və ya qida məhsulları) və ya xidmətlərin istehsalı ilə məşğul olan sektorlarda iş yerlərinin yaradılması zəruri hesab edilir.

Başa vurmaqda olduğumuz ildə "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti də ölkənin genişmiqyaslı inkişafına öz töhfəsini vermişdir. Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli sərəncamı ilə yaradılmış Səhmdar Cəmiyyət ölkənin aqrar sektorunun inkişafında yeni bir səhifə açmışdır. Cəmiyyətin qarşısına qoyulmuş məqsədlər kənd təsərrüfatı məhsullarının istehsalını və ya emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək və cənab Prezidentin etimadını doğrultmaqdır.

1 yanvar 2017-ci ildə fəaliyyətə başlamış Səhmdar Cəmiyyətin ilkin olaraq zəruri infrastrukturu qurulmuş, Bakı şəhərində əsas logistika mərkəzi olmaqla 12 regional bölmə, 38 rayonda dayaq məntəqələri yaradılmış və regional bölmələr üçün inzibati bina, eləcə də anbarlar icarəyə götürülmüş, lazımi avadanlıqlarla təchiz edilmişdir. Hazırda Səhmdar Cəmiyyətin istifadəsində ümumi tutumu 19 000 kvadratmetrdən çox anbar təsərrüfatı mövcuddur. Əlavə olaraq, gündəlik mal dövriyyəsini həyata keçirmək məqsədilə ümumilikdə 16 yük avtomobili icarəyə götürülmüş, Bakı şəhərində pərakəndə satışı həyata keçirmək məqsədilə 15 əlavə yük maşını avtomobil parkına daxil edilmişdir.

Hesabat dövrü ərzində dövlət büdcəsindən maliyyələşən 863 satınalan təşkilatla 1925 təchizat nöqtəsinə məhsul təchizatı ilə bağlı müqavilələr bağlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satınalınması Qaydası"na müvafiq olaraq elektron portal (www.tedaruk.az) yaradılmış və 2016-cı il 8 noyabr tarixində istifadəyə verilmişdir. Elə həmin tarixdən satınalan təşkilatların tələbatları əsasında 173 növ məhsul üzrə satınalma elanı həmin portalda yerləşdirilmişdir. Portalda yerləşdirilən məhsullar üzrə satınalma qiymətləri mövcud qaydalara əsasən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmaqla topdansatış bazar qiymətləri kimi müəyyənləşdirilmiş və həmin qiymətlər satınalma qiymətlərində yuxarı hədd kimi təyin edilmişdir. Hazırda satınalan təşkilatların təqdim etdiyi tələbat planına uyğun olaraq məhsulların təchizatı həyata keçirilir. Portalda sözügedən elanın yerləşdirilməsindən sonra, cari ilin sentyabr ayının birinə qədər olan dövr üçün 1761 istehsalçı və satıcıdan təklif qəbul edilmişdir. Həmin təkliflər təhlil olunduqdan və təklif verən satıcıların istehsal prosesinə və məhsulların saxlanma şəraitinə baxış keçirildikdən sonra ən uyğun təklifi verən 376 müəssisə ilə satınalma müqaviləsi bağlanmışdır. Bütün proses elektron portal üzərindən həyata keçirilərək alqı-satqı sisteminin şəffaflığı təmin olunmuşdur.

2017-ci ilin 11 ayı ərzində dövlət büdcəsindən maliyyələşən dövlət satınalan təşkilatları 18 məhsul növü üzrə 58 min 755 ton həcmində ərzaq məhsulları ilə təmin edilmiş, satınalınan məhsulun dəyəri 85 milyon 464 min manat təşkil etmişdir. Xüsusi qeyd etmək istəyirəm ki, bunun böyük hissəsi (395 nəfəri fermer və 276-sı şirkət olmaqla) yerli istehsalçılardan alınmışdır, bu isə böyük həcmdə vəsaitin yerli istehsalçıların dövriyyəsinə daxil olması deməkdir.

Ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılması üçün mütəmadi olaraq müvafiq araşdırmalar aparılmış, sahibkarlar tərəfindən daxil olan təkliflər müzakirə edilmiş, yerli məhsulların ixracı üçün Rusiya, Belarus, Ukrayna, Çexiya, Fransa, BƏƏ, Bəhreyn, Qətər Əmirliyi kimi ölkələrdə yerləşən ərzaq firmalarına əməkdaşlıq məktubları göndərilmiş və onlarla bir sıra məhsuldar görüşlər keçirilmişdir. Məsələn, Rusiyanın iki iri ticarət şirkəti ilə ASC arasında müqavilə imzalanmışdır. İxracla bağlı görülən işlər nəticəsində dəyəri 54 milyon 831 min manatdan çox olan 43 min 483 ton məhsul ixracı həyata keçirilmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki, ölkənin ixrac coğrafiyasında nisbətən yeni olan ərəb ölkələri ilə aparılan danışıqların nəticəsi kimi, cari ilin sentyabr ayında Qətərə bir yük maşını (TIR) müxtəlif məhsulların ilk partiyası yola salınmış növbəti aylarda bu istiqamətdə satışın daha da artırılması gözlənilir.

Məhsul istehsalı üçün avans ödənişi ilə bağlı, cari ilin aprel ayından etibarən Səhmdar Cəmiyyət tərəfindən kütləvi informasiya vasitələrində elanlar verilmiş və geniş təbliğat işləri aparılmışdır. Bu proses nəticəsində 309 istehsalçıdan müxtəlif məhsullar üzrə müraciət daxil olmuşdur. Həmin istehsalçıların monitorinqi həyata keçirilərək, istehsal potensialı və təqdim edilən sənədlərin düzgünlüyü təsdiq olunan 132 təsərrüfat subyektinə 11 adda məhsul istehsalı üçün 3 380 648 manat avans ödənilmişdir. Avans hesabına ümumilikdə 28 milyon 181 ton yerli məhsullar tədarük-təchizat sisteminə cəlb olunacaqdır.

Fəaliyyət göstərdiyimiz on bir ayın yekun nəticələri deməyə əsas verir ki, ölkə üzrə tədarük-təchizat sistemi qənaətbəxş təşkil olunub, kənd təsərrüfatı istehsalçılarına əlavə bir dəstək mexanizmi işə düşüb. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin icra vəziyyəti haqqında monitorinqin nəticələrinə əsasən, Səhmdar Cəmiyyətin həyata keçirdiyi işlər "Əsas icraçı qurumların performansı" şkalası üzrə 100 ballıq sistemlə hesablanmaqla 50 balla qiymətləndirilmişdir ki, bu da sevindirici bir göstəricidir.

Ötən dövrün təhlili, imzalanmış strateji əhəmiyyətli sənədlər bu qənaəti bir daha təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi Azərbaycanda ictimai zərurətə çevrilmişdir. Bu kursu layiqincə davam etdirən dövlət başçısı cənab İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır.

Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi ilə böhran mərhələsini inamla adlayacaq, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaqdır.

Əbülfət QOCAYEV,
"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC
İdarə Heyətinin sədri.